# Bəşər tarixində qara ləkə: 6—9 avqust 1945-ci il

1945-ci ilin may ayının 9-da faşist Almaniyasının qeydi şərtsiz təslim olması ilə demək olar ki, İkinci Dünya Müharibəsinin taleyi həll olundu. Ancaq müharibənin nəticələri Amerika Birləşmiş Ştatları başda olmaqla qərb dövlətlərini heç cür qane etmirdi. Çünki SSRİ Şərqi Avropaya nəzarəti bütünlüklə ələ keçirmiş, şərqi Asiyada, yaxın və orta şərqdə, Afrikada böyük nüfuz qazanmışdı. Amerika Birləşmiş Ştatları nüfuzunu bərpa etmək üçün sürətlə atom bombası hazırlamağa girişmiş, ancaq almanlarla aparılan müharibənin sonuna çatdıra bilməmişdi. Buna baxmayaraq ABŞ Prezidenti Trrümen 1945-ci ilin yayında SSRİ, ABŞ və İngiltərə başçılarının Avropanın gələcəyini müəyyən etmək üçün toplaşdığı Almaniyanın Podstam şəhərindəki konfransında SSRİ rəhbəri Stalinə güclü silaha malik olduğu barədə işarə vurmuş, onu güzəştə getməyə məcbur edəcəyini düşünmüşdü. Stalin heç soyuqqanlılığını itirmədən eyhamla bildirmişdi ki, ABŞ-ın belə bir silah əldə etməsindən xəbərdardır və bu silah Podstam konfransından bir neçə gün öncə sınaqdan keçirilmişdir.

Heç vəchlə SSRİ-yə uduzmaqla barışmayan ABŞ rəhbəri atom silahının gücünü həm SSRİ-yə, həm də bütün dünyaya göstərmək qərarına gəlir. Bunun üçün bəhanə Yaponiyanın hələ təslim olmaması idi. 1945-ci ilin avqustunda SSRİ və ABŞ qoşunları Yaponiyaya qarşı hücuma keçir. Onsuz da müttəfiqlərindən məhrum olmuş Yaponiyanın bu güclərə qarşı müqavimət göstərmək imkanı yox idi. Buna baxmayaraq Amerika Birləşmiş Ştatları bütün dünyaya hegemon dövlət olaraq qaldığını göstrmək üçün 1945-ci ilin avqust ayının 6-da Yaponiyanın Xerosima, avqust ayının 9-da isə Naqasaki şəhərlərinə atom bombası atdı. Atom bombalarının atılması dünya tarixində görünməmiş insan, canlı tələfatına, misli-bərabəri təsəvvür olunmayan dağıntılara səbəb oldu. Elə ilk zərbədə hər iki şəhərdə ümumilikdə 450 mindən çox insan həlak oldu. Hər iki şəhər xarabazara çevrildi. Min kilometrlərə radiusda canlı və cansız təbiətə məhvedici zərər vuruldu. Uzun illər bu silahların, təsirindən bu şəhərlərdə və həmin radiusa düşən yaşayış məntəqələrində doğulanlar xəstə doğuldu. Bu proses hələ də tam başa çatmamışdır. Ümumiyyətlə, Xerosima və Naqasakiyə atılan atom bombaları 10 milyondan artıq insanın həyatına təsir etmişdir.

Amerika Birləşmiş Ştatlarının insanlığa qarşı törətdiyi bu cinayətdən sonra böyük dövlətlər atom silahına malik olmaq üçün səylərini artırdılar. Tezliklə SSRİ, İngiltərə, Fransa, Çin atom silahı əldə etdi. Hazırda atom silahı olan ölkələrin siyahısı genişlənmiş, buraya Hindistan, Pakistan, Şimali Koreya və İsrail də əlavə olunmuşdur. Ümumiyyətlə, indi dünyada mövcud olan nüvə silahı ilə Yer kürəsini 20 dəfə səhraya çevirmək mümkündür. Əksinə bu silahlara qoyulan xərclə dünyanı, o cümlədən ucsuz-bucaqsız səhraları cənnətə çevirmək, insanlara cənnətdə vəd olunan rifahı təmin etmək mümkün olardı.

**Qüdrət SƏMƏDOV.**

# 5 avqust—Hərbi Donanma Günüdür

Azərbaycan tarixi günlərlə zəngin ölkədir. Belə tarixi günlərdən biri də 1919-cu ildə Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaradılan hərbi-dəniz donanması günüdür. Məlumat üçün bildirək ki, 1919-cu ilin yayında ingilislər Bakını tərk edərkən şəhər limanının idarəçiliyini və hərbi gəmilərin bir hissəsini Azərbaycan hökumətinə təhvil verdilər. Bu gəmilərin əsasında Azərbaycan Xəzər Hərbi-Dəniz Donanması təşkil olundu. Azərbaycan hökumətinin bu tədbiri ölkənin dəniz sərhədlərinin qorunmasında mühüm addım oldu. Lakin bu addım Cənubi Rusiya Silahlı qüvvələrinin kəskin etirazı ilə qarşılandı. Silahlı qüvvələrin Azərbaycan hökumətinə verdiyi notada Azərbaycan Xəzər Hərbi-Dəniz Donanmasının ləğv edilməsi tələb edilirdi. Bu notada tələb olunurdu ki, Xəzərdə hərbi donanma saxlamaq hüququ yalnız Rusiyaya məxsusdur. Lakin Azərbaycan hökuməti cavab notasında bəyan etdi ki, Xəzərdə donanma saxlamaq hüququ Azərbaycan dövlətinin suverən hüququdur. Azərbaycanın limanları və ticarət gəmiləri vardır. Bu gəmilər Azərbaycan bayrağı altında üzəcəkdir. Lakin hərbi donanmanın maddi-texniki bazasının və kadr təminatının gücləndirilməsi planları aprel işğalı nəticəsində həyata keçirilməmiş qaldı. Az sonra bolşeviklərin gəlişi ilə Azərbaycan hərbi donanması ləğv olundu.

SSRİ dağıldıqdan sonra Azərbaycanda da hərbi dəniz donanmasının təşkilinə şərait yarandı. 1992-ci il aprelin 7-də Azərbaycan Respublikası Hərbi Dəniz Qüvvələri Qərargahı, mühafizə və təminat rotası yaradıldı. Xəzər Hərbi Dəniz Donanmasının 25 faizi və Ali Hərbi Dənizçilik Məktəbi Azərbaycan Respublikasının ixtiyarına verildi. 1992-ci il iyunun 26-da «Bakılı» keşikçi gəmisində Azərbaycan Respublikasının dövlət bayrağı qaldırıldı. 1996-cı ildə Ali Hərbi Dənizçilik Məktəbi əsasında Dəniz Akademiyası təşkil olundu. Ulu öndər Heydər Əliyevin fərmanına əsasən hər il avqustun 5-i Azərbaycan Respublikası Hərbi Donanma Günü kimi qeyd olunur.

**«Qəbələ».**

# Müdrik deyimlər

✤Abır istəsən çox demə, sağlamlıq istəsən çox yemə.

✤Ata xəzinədir, qardaş dayaqdır, yaxşı dost isə həm xəzinə, həm də dayaqdır.

✤Dadsız aşa duz neyləsin, ağılsız başa söz neyləsin.

✤Dünyada 3 şey təhlükəlidir: bıçaq uşaq əlində, hakimiyyət axmaq əlində və tərif yaltaq əlində.

✤İnsanı şöhrətləndirən də, xar edən də əməlidir.

✤Bilikli adamın bir günü nadan adamın bütün ömrünə bərabərdir.

✤Pələng ölür—dərisi, fil ölür—sümüyü, insan ölür adı qalır.

✤Özünü idarə edə bilməyən şəxs başqalarını idarə edə bilməz.

✤Min daş-qaşın olunca, bir ağıllı başın olsun.

✤Bütün bəlaların mənbəyi tamahkarlıq, bütün cəfaların səbəbi hərislikdir.

✤Ağa ilə qul arasında heç bir dostluq ola bilməz.

✤Bir yalançı dost, min düşməndən qorxuludur.

✤Sərvətin qiymətini qazananda bilərlər, dostun qiymətini itirəndə.

✤Bala qədrini ana bilər, igid qədrini el.

✤Adamlar içində nəsihət məzəmmətə bərabərdir.

✤Dəli ilə tapmaqdansa, ağıllı ilə itirmək yaxşıdır.

✤Bədbəxtliyi qapıya gətirən tənbəllikdir.

**Topladı: Aslan CƏLİLOV.**

# Gürcüstanla sərhəddən sərnişinlərin 24 saat keçidi təmin olunacaq

Tovuz Gömrük idarəsinin Gürcüstan sərhəddində yerləşən «Sınıq Körpü» kömrük keçid məntəqəsində Azərbaycan və Gürcüstan gömrük orqanlarının nümayəndə heyətlərinin görüşü təşkil olunmuşdur.

Görüş zamanı «Sadıxlı» və «Mikivari» keçid məntəqələrindən sərnişinlərin 24 saat keçidinin təmin olunması üçün lazımi tədbirlərin görülməsi, bu il avqustun 10-dan etibarən isə saat 08-00-dan 20-00-dək yüngül minik avtomobillərinin keçidinin təmin olunması üçün razılıq əldə edilmişdir.


# Oxucuların nəzərinə!

## «Qəbələ» qəzetinə

**2015-ci ilin ikinci yarısı üçün abunə yazılışı davam edir.**

**Qəzet ayda dörd dəfə çıxır.**

**Yarımillik abunə qiyməti 15 manatdır.**

Abunə qəzetin «Kapitalbank»ın Qəbələ filialındakı hesabına köçürmə və ya redaksiyanın özündə kassaya nəqd ödəmə yolu ilə aparılır.

Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.

Ünvan: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.

Telefonlar: (024)20 5-19-14, (024)20 5-15-56, mob. (050) 328-11-42.


# ELANLAR

Azərbaycan Respublikası ƏMDK yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti 9 saylı ərazi idarəsi tərəfindən Zeynalov Ramin Səhhəd oğlunun adına verilmiş reyestr № 406013007567, qeydiyyat tarixi 25.08.2010, inventar № 406-58/344, qeydiyyat tarixi 24.08.2010 **çıxarış və plan ölçüsü sənədi itdiyi üçün** etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən Umarova Elma Ağamir qızının adına verilmiş J№ 499 F nömrəçli (kodu 406000038) **Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə itdiyi üçün** etibarsız sayılır.

# ALLAH RƏHMƏT ELƏSİN

Qəbələ rayon İncəsənət məktəbinin kollektivi iş yoldaşları **Yeganə Qarayevaya**, anası

**TAMARA XANIMIN**

vəfatı ilə əlaqədar kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


Məsul katib
N. R. Atakişiyev.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

Məsul növbətçi:
Q. C. Səmədov.



ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru



Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2300.

Oxucu məktubları geri qaytarılmır.